***Habil Yaşar***

***Xalq unutmaz hec zaman sənin kimi öndəri***

Sən gərəkdin millətə, millət səni gözlədi,
Atdığın qədəmləri addım-addım izlədi,
Əyilən işlərimiz gəlişinlə düzəldi,
Bir xalqın ümid yeri, bir xalqın pənah yeri,
Xalq unutmaz heç zaman sənin kimi öndəri.

Bütün dünya danışdı qurduğun siyasətdən,
O, səndəki böyüklük, səndəki əzəmətdən,
Zamanlara sığmayan bir ömrü yaşadın sən,
Bir xalqın ümid yeri, bir xalqın pənah yeri,
Xalq unutmaz heç zaman sənin kimi öndəri.

Bu gün rahat yaşayıb, rahat nəfəs alırıq,
Dünyada günü-gündən daha da ucalırıq,
Heydər Əliyev deyib, səndən ilham alırıq,
Bir xalqın ümid yeri, bir xalqın pənah yeri,
Xalq unutmaz heç zaman sənin kimi öndəri.

***30.04.2013***

***Yaşar H. Xalq unutmaz hec zaman sənin kimi öndəri // Yeni Azərbaycan. – 2013. – 9 may. - № 82. – S. 11.***